# Azərbaycanda multikultural dəyərlər əsrlərdən bəri çox önəmli yerə malikdir

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM), Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və Bakı Slavyan Universitetinin (BSU) birgə təşkilatçılığı ilə reallaşan "Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: öyrən, araşdır, paylaş-2016" adlı Beynəlxalq Multikulturalizm qış məktəbi fevralın 9-da işini Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində davam etdirib.

Əvvəlcə tələbələr muzeyin ekspozisiyaları ilə tanış olublar. Muzeydə BBMM-in Drezden filialının icraçı direktoru Bircit Vaysgerber "Almaniya multikulturalizminin aktual məsələləri və Azərbaycan təcrübəsi" mövzusunda mühazirə oxuyub. Mövzu qış məktəbi iştirakçılarının marağına səbəb olub. B.Vaysgerber tələbələrin suallarını cavablandırıb.

Günün ikinci yarısında Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının sədri akademik Kamal Abdullayev qış məktəbinin iştirakçıları ilə görüşüb. Qış məktəbi iştirakçılarını salamlayan akademik müxtəlif ölkələrin müəllim, tələbə heyətini Bakıda görməkdən məmnunluğunu ifadə edərək deyib: "Biz sizin gəlişinizi uzun müddətdir ki, səbirsizliklə gözləyirdik. Rusiya, İsveçrə, Ukrayna, Türkiyə, İtaliya, Portuqaliya, Polşa, Çexiya, Gürcüstan, Belarus, Bolqarıstan, Litva, İndoneziya, Yaponiya və Almaniya universitetlərinin tələbələrini səmimi qəlbdən salamlayıram. Portuqaliyadan gələn əziz qonaqlarımız bir daha sübut etdilər ki, tələbəliyin ömrü, müddəti olmur. Biz ömür boyu öyrənməyə məhkumuq. Bu gün Beynəlxalq Multikulturalizm qış məktəbinin ikinci günüdür və ümid edirəm ki, bu günlər sizin üçün maraqlı, yaddaqalan keçir. Azərbaycan Prezidenti İlham Əliyev ötən il keçirilən Beynəlxalq Multikulturalizm yay məktəbinin yekunları ilə tanış olandan sonra dedi ki, biz hökmən tələbələrimizi qış məktəbinə də dəvət etməliyik. Düşünürük ki, Azərbaycan haqqında nəzəri biliyə malik olduqdan sonra onu əyani şəkildə görmək o biliyə ciddi əlavələr etmək deməkdir. Mən burada xüsusilə yay məktəbinin iştirakçılarını da salamlamaq istərdim. Onlar artıq bir dəfə Bakıda olublar və mənə elə gəlir ki, biz növbəti yay məktəbində də qış məktəbinin bəzi iştirakçılarını görəcəyik. "Azərbaycan multikulturalizmi" fənni ilə tanışlıq bitəndən sonra da ümid edirəm ki, xarici tələbələrin Azərbaycandakı dostları ilə əlaqələri davam edəcək. Çünki bir azərbaycanlı təsəvvüründə dostluq bir ömür boyu sənə verilən nemətdir. Azərbaycan Prezidenti, dövləti, xalqı və cəmiyyəti həmişə çalışır ki, ölkəmizin dostları ilə əlaqələri bir az da möhkəmlənsin. Biz inanırıq ki, Azərbaycana olan marağınız məhəbbətə çevriləcək, Azərbaycana olan məhəbbətiniz isə, eyni zamanda, qış məktəbində təmsil olunan o biri ölkələrə də sevgiyə çevriləcək. Əsl məhəbbət heç vaxt birtərəfli olmur. Bugünkü dünyamızın isə əsl məhəbbətə, mərhəmətə, şəfqətə çox böyük ehtiyacı var. Azərbaycan Prezidenti 2016-cı ili ölkəmizdə "Multikulturalizm ili" elan edib. Bunun bizim üçün böyük əhəmiyyəti var. Əslində Prezident İlham Əliyev bununla dünyaya çox aydın bir mesaj göndərib. O, bu ili, eyni zamanda, insanların bir-birinə mərhəmət, şəfqət göstərməsi, bir-birinə münasibətinin xoş olması ili kimi qeyd edib. Azərbaycanda əsrlərdən bəri multikultural dəyərlər son dərəcə önəmli yer tutur. Prezident İlham Əliyev 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" elan edərkən məhz xalqımızın tarixi kökündə formalaşan və yaşayan möhtəşəm mənəvi, elmi, siyasi qaynaqlara əsaslanır. İnanıram ki, ölkəmizdə olduğunuz 8-10 gün ərzində Azərbaycan multikulturalizmi haqqında təsəvvürlərə əyani şəkildə malik olacaqsınız. Eyni zamanda, qış məktəbinə xarici ölkələrdən gəlmiş müəllimlərimizi salamlayaraq onlara işlərində uğurlar arzulayıram. Qış məktəbi başladı və mən inanıram ki, bayırda qış olmağına baxmayaraq, bizim ürəklərimizdə bahar istiliyi hökm sürəcək".

Görüş çərçivəsində tələbələr Azərbaycanın milli icma rəhbərləri və üzvləri ilə tanış olublar.

Tədbirdə "Xudojestvennaya literatura" nəşriyyatının baş redaktoru professor G.V.Pryaxin çıxış edərək qış məktəbinin əhəmiyyəti haqqında söhbət açıb.

Dövlət müşaviri görüşdə həmçinin BBMM-in nəşr etdiyi "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" kitabı haqqında qış məktəbi iştirakçılarına ətraflı məlumat verib və bu nəşrin "Azərbaycan multikulturalizminin qaynaqları" seriyasından ilk kitab olduğunu bildirərək deyib: "Bu kitabda Azərbaycan ədəbiyyatının bütün dövrlərində (1920-ci illərə qədər) yazıb-yaradan sənətkarların əsərlərində əksini tapan multikultural, tolerant dəyərlər beyt-beyt, qəzəl-qəzəl, abzas-abzas yığılıb bir kontekst daxilində toplanıb. Burada klassik şair və yazıçılarımızın yaradıcılığı tamamilə yeni bir rakursda təqdim edilir. Bu baxımdan kitabda ədəbiyyatımıza multikultural dəyərlər istiqamətindən baxış onun əzəmətini müəyyənləşdirən təməl meyarlardan biri kimi özünü göstərir.

Kitabda söz sənətkarlarımızın ayrı-ayrı dinlərə, dillərə mənsub xalqlara, başqa xalqlara məxsus alimlərə, yazarlara, gözəllərə sonsuz ehtiramın təsviri, tərənnümü faktlarla öz təsdiqini tapıb. Bu gün xalqımıza xas olan tolerant, multikultural dəyərlər əsrlər boyu əcdadlarımızın canında, qanında yaşayıb. Bu isə Prezident İlham Əliyev dediyi "Multikulturalizm Azərbaycan xalqına tarixən xas olan dəyərdir" sözlərinin əyani göstəricisidir".

Şəhər gəzintisindən sonra tələbələr üçün "Azərbaycan sənədli filmləri axşamı"nın təşkili və bu tədbir çərçivəsində Əməkdar incəsənət xadimi, rejissor Ziya Şıxlinski ilə görüş nəzərdə tutulub.

* * *

Fevralın 9-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və Bakı Slavyan Universitetinin birgə təşkilatçılığı ilə "Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: öyrən, araşdır, paylaş-2016" adlı Beynəlxalq Multikulturalizm qış məktəbinin müxtəlif ölkələrdən olan iştirakçıları ilə görüşüb.

Mübariz Qurbanlı bildirib ki, bu gün dünyada multikulturalizmin alternativi yoxdur. Tarixən tolerant və multikultural dəyərləri üstün tutan, əhalisinin 96 faizini müsəlmanlar təşkil edən Azərbaycanda bütün dinlərin nümayəndələri - müsəlman, xristian, yəhudilər əsrlərdir sülh və qardaşlıq şəraitində yaşayırlar. Azərbaycan multikulturalizm modelinin dünyaya nümunə ola biləcəyini vurğulayan komitə sədri ölkəmizdə İslam dininin müxtəlif məzhəbləri arasında həmrəylik olduğunu, Cənubi Qafqazın ən böyük məscidi sayılan Heydər məscidində vəhdət namazlarının qılındığını diqqətə çatdırıb.

Ölkəmizdəki dini konfessiyalar barədə iştirakçılara ətraflı məlumat verən Mübariz Qurbanlı bildirib ki, bu konfessiyalar anlaşma şəraitində fəaliyyət göstərirlər. Azərbaycanda multikultural mühitin kökündə Azərbaycan xalqının mentalitetinin, xalqın tərbiyəsinin dayandığını deyən komitə sədri azərbaycanlı ailələrdə kiməsə nifrət hissinin deyil, sevginin, hörmətin, humanizm, mərhəmət hisslərinin təşviq edildiyini vurğulayıb.

Komitə sədri bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan edilməsi, eləcə də həyata keçirilən bütün bu işlər multikulturalizmin dövlət siyasətində prioritet olmasının, Azərbaycanda müxtəlif konfessiyalar və etnik birliklərin dostluq, qardaşlıq şəraitində yaşamasının, ölkəmizdə normal multikultural mühitin mövcudluğunun göstəricisidir. Azərbaycanda dövlət siyasətinin tolerant mühiti dəstəklədiyini diqqətə çatdıran Mübariz Qurbanlı qeyri-islam dini icmalara dövlət tərəfindən mütəmadi maliyyə yardımı göstərildiyini, məscidlər, sinaqoqlar və kilsələrin mavi yanacaqla təminatda güzəştlər əldə etdiklərini deyib.

Mübariz Qurbanlı qeyd edib ki, dünyanın 30 ölkəsində milli, etnik, dini zəmində toqquşmalarda son 15 ildə ölənlərin sayı orta hesabla 2,5 milyona çatıb, ən azı, 50 milyon insan isə öz torpağından didərgin düşüb. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə iştirakçılara geniş məlumat verən, bu münaqişə nəticəsində ərazilərimizin 20 faizinin işğal olunduğunu, 1 milyon azərbaycanlının öz doğma yurd-yuvasından didərgin düşdüyünü vurğulayan Mübariz Qurbanlı ermənilərin işğal etdikləri ərazilərdə tarixi və dini abidələrimizi məhv etdiklərini bildirib. Komitə sədri dünyadakı bütün problemlərin həllinin dinlər, sivilizasiyalararası dialoqlardan, digər dinlərin, dillərin, müxtəlif mədəniyyətlərin, eləcə də ayrı-ayrı irqlərin nümayəndələrinə bərabər münasibətin, hörmətin göstərilməsindən - multikulturalizmdən asılı olduğunu deyib.

**AZƏRTAC**